**“Expressbank” Açıq Səhmdar Cəmiyyətinin (ASC)**
**Mükafatlandırma siyasətinin**
**əsas prinsipləri**

“Expressbank” ASC-də (bundan sonra “Bank”) mükafatlandırma Müşahidə Şurasının üzvləri və Müşahidə Şurasının komitələrinin müstəqil kənar üzvləri istisna olmaqla, Bankla əmək münasibətlərində olan bütün işçilərinə münasibətdə tətbiq edilir.

Mükafatlandırma əmək bazarında Bankın rəqabətliliyinin gücləndirilməsinə, risklərin effektiv idarə edilməsinə, Bankın işçilərinin əmək fəaliyyətinin səmərəliliyinin artırılmasına, Bank daxilində birgə fəaliyyəti və Bankın ümumi hədəflərinə bağlılığın təşviq edilməsinə, işçilərin motivasiyasının artırılmasına, işə qəbul və insan resurslarının idarə edilməsi prosesinin gücləndirilməsinə xidmət edir.

Bankda mükafatlandırma “Banklarda korporativ idarəetmə Standartları”nda müəyyən edilmiş, həmçinin aşağıda qeyd edilmiş əsas prinsiplər rəhbər tutulmaqla həyata keçirilir:

- mükafatlandırma şərtlərində edilmiş dəyişikliklərin qüvvəsinin geriyə şamil olunmaması;
- mükafatların şərtlərinin müəyyən edilməsində və onların hesablanmasında hər hansı bir fərdiçiliyə və diskriminasiyaya yol verilməməsi;
- Bankın hər bir işçisinə il ərzində verilən mükafatların ümumi həcminin müəyyən edilmiş yuxarı həddən çox olmaması;
- işçilərin əməyinin yalnız mükafatlar vasitəsilə ödənilməməsi.